BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№1 Humanitar elmlər seriyası 2010

# NAXÇIVANIN TARİXİ TALEYİNDƏ HEYDƏR ƏLİYEVİN ROLU

Ə.Q.QASIMOV
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*edalet-qasimov@rambler.ru*

*Məqalədə Naxçıvan Muxtar Respublikasının tarixi taleyində ümummilli lider Heydər Əliyevin oynadığı rol işıqlandırılmış, onun həm Azərbaycan SSR-ə rəhbərlik etdiyi 70-80-ci illərdə, həm də Müstəqil Azərbaycanın prezidenti olduğu dövrdə bölgənin sosial, siyasi, iqtisadi və mədəni inkişafı üçün həyata keçirdiyi kompleks tədbirlər təhlil edilmişdir.*

Tarix boyu milli dirçəliş, ictimai tərəqqi yollarını dahi şəxsiyyətlər müəyyənləşdirmişlər. Əslində dahi şəxsiyyətlərin fəaliyyətləri və əməlləri ilə nizama salınan tarixin memarı da məhz ulu şəxsiyyətlərdir. Mürəkkəb, təlatümlü çağlarda məhz belə şəxsiyyətlər irəli çıxaraq liderlik və xilaskarlıq missiyasını yerinə yetirməklə öz xalqının və bəşəriyyətin taleyində silinməz iz qoyurlar. Əslində bu şəxsiyyətlərin fəaliyyəti, üzərlərinə götürdükləri missiya zaman ölçülərinə sığışmayaraq, tarixin sonrakı gedişinə güclü təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq öz xalqının inkişaf yolunu müəyyən etməklə həm də onun sonrakı taleyini də təyin etmək məsuliyyətlərini öz üzərlərinə götürürlər.

Bu gün müstəqillik və tərəqqi yolunda inamla addımlayan, azad və demokratik dövlət kimi dünya birliyində layiqli yer tutan, iqtisadi və siyasi islahatların uğurla həyata keçirildiyi Azərbaycan Respublikasının müasir tarixinin təqribən yarım əsrə bərabər dövrü və bu dövr ərzində qazandığı nailiyyətlər, uğurlar xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasətçi Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur. Bu dövr ərzində Heydər Əliyev Azərbaycan xalqını və dövlətini zamanın ən çətin sınaqlarından uğurla çıxararaq sosial-iqtisadi, mədəni-mənəvi tərəqqiyə doğru aparmışdır.

Heydər Əliyev böyük və mənalı ömrünün hər anını hər şeydən əziz tutduğu xalqının tərəqqisi və rifahına sərf etmiş, onun dünya xalqları arasında şərəfli yer tutmasına, doğma yurdu Azərbaycanın nüfuzunun yüksəlməsinə həsr etmişdir. Harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, istər Naxçıvanda adi dövlət məmurundan SSRİ kimi nəhəng imperiyanın başçılarından birinə qədər yüksəldiyi totalitar sovet cəmiyyətində, istərsə də düşmən məngənəsində ölüm-dirimlə çarpışan Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi və qurucusu olduğu Azərbaycan Respublikasının prezidenti olduğu müstəqillik dövründə də o yalnız bu amallarla yaşamış, öz xalqına xidməti həyatının mənası, fəaliyyətinin məramı hesab etmişdir.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlməsi ilə ölkə həyatının bütün sahələrində çox böyük müsbət dəyişikliklər baş verdi. Sovet

totalitar rejiminin yaratdığı məhdud imkanlardan məharətlə istifadə edən Heydər Əliyev Azərbaycanın sosial-iqtisadi, mənəvi-mədəni inkişafına zəmin yaradacaq mühüm qərarlara imza atmaqla, onun çiçəklənməsi üçün mümkün olan hər şeyi etmişdi. Hələ o zaman Azərbaycanın gələcək müstəqil dövlət kimi yaşaya bilməsi üçün zəruri olan əsaslar – iqtisadi, mənəvi-mədəni potensial yaradılmış, milli kadr problemi həll edilmişdi. O dövrdə iqtisadiyyat, mədəniyyət, təhsil sahəsində əldə edilən tərəqqi, milli birliyə nail olunması, milli özünüdərkin yüksəlişi müstəqil dövlətin yaranmasına xidmət edən strategiyanın bünövrəsini qoymuşdu.

Bugünkü müstəqil Azərbaycanın əldə etdiyi uğurlar məhz həmin dövrdə Heydər Əliyev tərəfindən yaradılmış möhkəm təmələ əsaslanır.

Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin dediyi kimi: «Heydər Əliyev ictimai-siyasi quruluşdan asılı olmayaraq, sözün əsl mənasında, bütün dövrlərdə Azərbaycan xalqının lideri idi. 1970-1980-ci illərdə ölkəyə rəhbərlik etdiyi dövr ərzində onun tərəfindən görülmüş işlər Azərbaycan xalqının maraqlarına xidmət edirdi. Məhz onun fəaliyyəti nəticəsində Azərbaycana mərkəzi fondlardan böyük həcmdə vəsait gətirilirdi. Yeni zavodlar, fabriklər tikilirdi. İndi bu zavod və fabriklər Azərbaycanın iqtisadi və sosial potensialına böyük dəstəkdir. Əgər bu dövrdə Azərbaycanda iri sənaye infrastrukturu yaranmasaydı, xüsusilə neft sahəsində, neft emalı sahəsində nəhəng qurğular tikilməsəydi, bu gün Azərbaycanın iqtisadi potensialı o qədər də güclü ola bilməzdi. İctimai-siyasi quruluşundan asılı olmayaraq bütün zamanlarda Heydər Əliyev liderlik keyfiyyətləri ilə xalqa, millətə bağlı olduğundan böyük işlər görmək üçün gözəl şərait yaratmışdı. Lakin təbii ki, Azərbaycanın ən ağır dövrü olan müstəqilliyimizin ilk illəri də Heydər Əliyevin fəaliyyətində həlledici idi» [1, 2005, 27 mart].

1993-cü ildə öz müstəqilliyini, dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşərkən xalqımız yenidən öz taleyini milli liderinə etibar etməli oldu. Xalqının israrlı təkidi ilə hakimiyyətə qayıdan Heydər Əliyev siyasi təcrübəsi, uzaqgörənliyi və sarsılmaz iradəsi ilə ölkəni onu gözləyən təhlükələrdən xilas etdi, cəmiyyəti vahid məfkurə ətrafında birləşdirdi.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün fəaliyyəti ərzində vətəninə xidməti ilə azərbaycançılıq nümunəsini nümayiş etdirmişdi. O əsl millət rəhbəri, dövlət başçısı kimi Azərbaycanın bütün bölgələrinin ahəngdar inkişafına böyük diqqət yetirir, ölkənin ümumi inkişafını hər bir rayonun, kəndin, qəsəbənin tərəqqisi və yüksəlişi ilə vəhdətdə görürdü. Heydər Əliyevin məqsədyönlü siyasəti və böyük təşkilatçılıq qabiliyyəti nəticəsində Azərbaycanın bölgələrində yüksək sosial-iqtisadi və mədəni göstəricilər əldə edilmiş, Bakıdan əlavə ölkənin digər yerlərində iri sənaye və kənd təsərrüfatı mərkəzləri formalaşmışdı. Vətənin torpağı, hər guşəsi onun üçün müqəddəs və əziz idi.

Heydər Əliyevin vətən məhəbbəti, hər hansı etnik, regional amillərin fövqündə dayanan, ilahi məhəbbəti idi. Heydər Əliyev, özünün dediyi kimi, Yardımlıya da, Lənkərana da, Qusara da, Gəncəyə də, Naxçıvana da eyni münasibət bəsləyir, qətiyyən fərq qoymurdu [3, 145].

Lakin etiraf etməliyik ki, ümummilli liderimizin Naxçıvana münasibəti Azərbaycanın digər bölgələrinə olan münasibətindən fərqli səciyyə daşıyırdı. Təbii ki, bütün insanlarda olduğu kimi Heydər Əliyevin də kiçik vətəninə xüsusi sevgisi və ehtiramı var idi.

Birincisi, özünün də qeyd etdiyi kimi, o, bu torpaqda doğulmuş, burada təhsil almış, buradan həyata addımlamış, daim bu torpaqla bağlı olmuş, buna görə də, bütün dövrlərdə öz doğma torpağına xidmət etmək üçün əlindən gələni etmişdir [3, 145].

İkincisi, Heydər Əliyev peşəkar tarixçi, təhlükəsizlik orqanlarının təcrübəli rəhbər işçisi kimi bu regionun hansı mürəkkəb geosiyasi və coğrafi şəraitdə yerləşdiyini, ermənilərin tarixən bu torpağı ələ keçirmək üçün hansı fitnələrə əl atdığını çox gözəl anlayır, buna görə də muxtar respublikanın təkcə sosial-iqtisadi cəhətdən inkişafına deyil, hərbi siyasi cəhətdən möhkəmlənməsinə, burada Azərbaycanın milli-mənəvi, sosial-demoqrafik faktorlarının daha da artaraq mütləq üstünlük təşkil etməsinə çalışırdı. Bu məqsədlə hələ sovet hakimiyyəti illərində muxtar respublikada iri sənaye potensialının yaradılmasına, kənd təsərrüfatının inkişaf etdirilməsinə, sosial infrastrukturun, elm, təhsil sisteminin formalaşmasına, ziyalı təbəqəsinin, kadr potensialının yüksəldilməsinə şərait yaradan kompleks qərarlar vermişdi.

Müstəqillik dövründə isə Ermənistan tərəfindən hərbi, iqtisadi blokadaya alınmış muxtar respublikanın düşmən əlinə keçməməsi, siyasi, iqtisadi və mənəvi böhrandan çıxarılması yalnız Heydər Əliyevin misilsiz, fədakar fəaliyyəti sayəsində mümkün olmuşdur.

Üçüncüsü, Heydər Əliyevə qədər Naxçıvan MR-in iqtisadiyyatı və mədəniyyəti çox ləng inkişaf edirdi, bir çox göstəricilərə görə muxtar respublika Azərbaycanın və respublikanın digər rayonlarından, xüsusən DQMV-dən dəfələrlə geridə idi. Məsələn, 1960-cı illərin sonlarında adambaşına düşən sənaye məhsulunun həcmi Azərbaycan üzrə 828 manat, DQMV üzrə 700 manat təşkil etdiyi halda, Naxçıvan MR üzrə bu göstərici 263 manat, pərakəndə ticarətin həcmi isə müvafiq olaraq 382, 358, 267 manat təşkil etmişdi [2, v.199]. Mərkəzi hakimiyyət Dağlıq Qarabağın iqtisadi və sosial inkişafına daha çox diqqət ayırır, təbii sərvətlərlə zəngin olan Naxçıvan MR-də isə məhsuldar qüvvələrin inkişafına bilərəkdən etinasızlıq göstərirdi. Zəngəzurun Ermənistana verilməsi ilə Azərbaycandan təcrid vəziyyətinə salınmış Naxçıvan MR-in iqtisadi cəhətdən zəif inkişaf etmiş regiona çevirmək, bu yolla naxçıvanlıları ata-baba torpaqlarından didərgin salmaq siyasəti yeridilirdi.

Çox təəssüf ki, Azərbaycanın əvvəlki rəhbərliyi də Naxçıvana laqeyd və ögey münasibət göstərir, muxtar respublikanın inkişafı üçün kifayət qədər əməli addımlar atmırdı.

1969-cu ildə hakimiyyətə gəldikdən sonra Naxçıvana qarşı yeridilən ayrı-seçkilik siyasətini açıq şəkildə tənqid edən Heydər Əliyev bu ədalətsizliyi aradan qaldırmaq, Naxçıvan da daxil olmaqla Azərbaycanın bütün bölgələrinin dinamik, proporsional inkişafını təmin etmək üçün ciddi fəaliyyətə başladı, həyata keçirilmiş kompleks təşkilati-siyasi, iqtisadi, mədəni tədbirlər nəticəsində muxtar respublikanın ahəngdar inkişafı təmin edildi. Muxtar respublika qısa zaman kəsiyində əsrlərə bərabər inkişaf yolu keçdi. Naxçıvan Muxtar Respublikasının tərəqqisini geostrateji, milli məqsəd hesab edən Heydər Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində muxtar respublikanın sənaye, kənd təsərrüfatının, sosial sahənin inkişafında, infrastrukturunun genişləndirilməsində mühüm nailiyyətlər əldə edilmiş, yeni təsərrüfat sahələri yaradılmış, mədəniyyət, elm, təhsil sahələri yüksək inkişaf səviyyəsinə çatdırılmış, ziyalı kadr potensialı yaranmışdır. Lakin Heydər Əliyev istefaya getdikdən sonra Azərbaycanın yeni iqtidarları sələflərinin bu bölgəyə münasibətdə yeritdiyi «siyasi ənənə»ni bərpa edərək muxtar respublikanı yenidən taleyin ümidinə buraxdılar, «Naxçıvanı bir apendisit kimi kəsib atmağa» (Heydər Əliyev) belə hazır oldular.

Lakin Heydər Əliyevin siyasi dühası yenidən Naxçıvanı onu gözləyən fəlakətlərdən xilas etdi, bu qədim diyarı sabitliyə və tərəqqiyə qovuşdurdu.

Dördüncüsü, Heydər Əliyev milli dövlətçilik tarixində Naxçıvanın yerini və rolunu həmişə yüksək qiymətləndirir, naxçıvanlılarda həmişə milli qürurun, milli istiqlaliyyət ruhunun, müstəqilliyə bağlılığın, azərbaycançılığın möhkəm olduğunu qeyd edirdi [3, 145].

Əlbəttə, naxçıvanlıların milli dəyərlərə belə sıx bağlılığı kompleks tarixi, geosiyasi, hətta coğrafi amillərlə bağlıdır. Millilik, azərbaycançılıq Naxçıvanda həmişə yüksək olmuşdur. Bununla yanaşı, muxtar respublika əhalisində milli mənəvi dəyərlərin, vətənpərvərlik ruhunun daha da yüksəlməsində Heydər Əliyevin Azərbaycanda bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü siyasətin də çox böyük təsiri olmuşdur. Ona görə də, heç də təsadüfi deyildir ki, 80-ci illərin sonlarında – 90-cı illərin əvvəllərində Azərbaycanda vüsət alan milli istiqlaliyyət uğrunda mübarizədə naxçıvanlılar ön cərgədə idilər.

Nəhayət, Heydər Əliyevin siyasi fəaliyyətinin mühüm dövrlərindən biri olan 1990-1993-cü illər də bilavasitə Naxçıvanla əlaqədardır. Taleyin hökmü ilə muxtar respublika üçün çox mürəkkəb bir dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməli olan Heydər Əliyev bu torpaqda bütövlükdə Azərbaycan üçün taleyüklü qərarlara imza atdı, müstəqil dövlətçiliyin konseptual istiqamətlərini müəyyənləşdirdi. Bu dövr Heydər əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Naxçıvan torpağını erməni təcavüzündən xilas etməsi oldu. Onun, bölgənin və onun əhalisinin təhlükəsizliyinin təmin edilməsi, hərbi müdafiə sahəsində atdığı addımlar, rus qoşunlarının bölgədən qansız-qadasız çıxarılması və bu zaman bütün silah-sursatın Azərbaycanda qalması dünya hərbi-diplomatiya sənətinin ən böyük hadisələrindən biri hesab edilməlidir.

Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində Naxçıvan MR taleyin ağır sınaqlarından üzüağ çıxdı, erməni təcavüzündən xilas oldu, siyasi sabitlik təmin olundu, sosial-iqtisadi problemlərin həlli, milli dövlət quruculuğu, mədəniyyət, təhsilin dirçəldilməsi istiqamətində uğurlu addımlar atıldı. Naxçıvan MR-in bugünkü uğurlarının əsası məhz Heydər Əliyevin MR-ə rəhbərlik etdiyi 1991-1993-cü illərdə qoyuldu.

Heydər Əliyev sonralar bu dövrü nəzərdə tutaraq həmin illərin onun üçün əziz, çox şərəfli illər olduğunu, bu torpağa daha da yaxından bağlandığını etiraf etmişdi [4, 31, 33].

Heydər Əliyev Naxçıvanın muxtariyyət statusunun möhkəmləndirilməsi istiqamətində də cahanşümal işlər görmüşdü. Onun təşəbbüsü ilə hələ 1974-cü ildə Naxçıvan MR-in 50 illiyi ittifaq səviyyəsində geniş qeyd olunmuşdu. 1990-1993-cü illərdə Naxçıvan bölgəsinin muxtariyyət statusunun beynəlxalq müqavilələrlə təsbit olunduğunu bütün dünyaya bəyan edərək erməni təcavüzünün qarşısını qətiyyətlə almağa nail oldu. Heydər Əliyev Naxçıvanın bir Azərbaycan diyarı kimi yaşamasının, inkişaf etməsinin onun muxtariyyət hüququnun sayəsində mümkün olduğunu aydın dərk edərək gələcəkdə də Naxçıvan üçün bunun vacibliyini qeyd etmiş, Naxçıvanın muxtar dövlətçilik statusunun daha da möhkəmləndirilməsi üçün sonrakı dövrlərdə də əməli addımlar atmışdır. Azərbaycanın 1995-ci ildə qəbul edilmiş konstitusiyası ilə Naxçıvan MR-in statusu əbədi müəyyənləşdirilmişdir.

Nəhayət tarixi-siyasi əhəmiyyətini və xalqımızın tarixində özünəməxsus yer tutduğunu nəzərə alaraq Heydər Əlyevin 4 fevral 1999-cu il tarixli fərmanı ilə Naxçıvan MR-ın 75 illiyi ölkəmizdə geniş şəkildə qeyd edildi.

Bütövlükdə, Naxçıvan MR-in təhlükəsizliyinin təmin edilməsi, sosial-iqtisadi, mədəni inkişafı, onun muxtariyyət statusunun möhkəmlənməsi, bilavasitə Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır.

Respublikaya ikinci dəfə rəhbərlik etdiyi 1993-2003-cü illərdə Heydər Əliyevin dövlətçilik strategiyasının mühüm istiqaməti Azərbaycanın bütün regionlarının bərabər inkişafı məsələsi təşkil edirdi. Həmin illərdə Naxçıvan MR öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, ictimai həyatın bütün sahələrində çox ciddi uğurlara imza atmışdır. Xüsusən, 1995-ci ildə Heydər Əliyev məktəbinin ən layiqli nümayəndələrindən biri olan Vasif Talıbovun Naxçıvan Muxtar Respublikasının rəhbəri seçilməsi ilə regionun sosial-iqtisadi, mədəni inkişafında ciddi dəyişikliklər baş vermişdir. Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş geniş miqyaslı islahatlar qısa zamanda bütün Azərbaycanda olduğu kimi muxtar respublikada da öz bəhrəsini vermiş, 1997-ci ildən başlayaraq mövcud geriləmənin qarşısı alınmış, iqtisadi inkişafın əsası qoyulmuşdur. Həyata keçirilmiş struktur dəyişiklikləri, özəlləşdirmə və digər iqtisadi tədbirlər, bazar mexanizmlərinin geniş tətbiqi nəticəsində ümumi məhsul istehsalı 1995-ci illə müqayisədə 2000-ci ildə 2,4 dəfə, o cümlədən, sənaye məhsulu istehsalı 1,7 dəfə, tikintidə əsas kapital qoyuluşu 5 dəfə artmış, sənayedə yaranmış durğunluq aradan qaldırılmış, 15 adda yeni məhsul istehsalına başlanmışdır. Muxtar respublikada aqrar islahatlar da öz bəhrəsini vermiş, kənd təsərrüfatı məhsullarının istehsal həcmi 2,3 dəfə artmışdır [5]. 1995-2000-ci illərdə əldə olunmuş nailiyyətlər sonrakı dövrlərdə də davam etdirilmiş, sosial iqtisadi inkişafın dinamikliyi təmin edilmişdir.

Bütün bunlar Heydər Əliyevin inkişaf və tərəqqi konsepsiyasının həyatiliyinin və əbədiliyinin bariz nümunəsidir.

Heydər Əliyevin siyasi kursu, müəyyənləşdirdiyi inkişaf strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl surətdə həyata keçirilir. Ölkə prezidenti İlham Əliyev Naxçıvan MR-in sosial-iqtisadi və mədəni inkişaf məsələlərinə daim diqqət yetirir. Prezidentliyi dövründə o, dəfələrlə (8 dəfə) muxtar respublikada olmuş, hər səfərində yeni istehsal, sosial obyektlərinin açılış mərasimlərində iştirak etmiş, bütün sahələrdə həyata keçirilən tədbirlərlə yerində tanış olmuş, muxtar respublikanın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi üçün öz dəyərli tövsiyə və tapşırıqlarını vermişdir.

Bu gün Naxçıvan Muxtar Respublikası blokada şəraitində yaşamasına baxmayaraq Azərbaycanın tərkib hissəsi kimi ölkəmizin ictimai-siyasi, iqtisadi, mədəni həyatı ilə həmahəng şəkildə özünün tarixi inkişaf yolunu uğurla davam etdirir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan" qəz., 2005-ci il, 27 mart.
2. Azərbaycan Respublikası Prezidenti Administrasiyası Siyasi Partiyalar və İctimai hərəkatlar Dövlət Arxivi (ARPASPİHDA), f.1, s.61, iş 17.
3. Qədim Naxçıvanda bayram – Naxçıvan Muxtar Respublikası – 75. Bakı: Azərbaycan, 1999, 287 s.
4. Ömrün üç günü. Bakı: Ergün, 1997, 90 c.
5. Talıbov V.Y. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. "Azərbaycan" qəz., 2001-ci il, 20 oktyabr.

## РОЛЬ ГЕЙДАРА АЛИЕВА В ИСТОРИЧЕСКОЙ СУДЬБЕ НАХЧЫВАНА

**А.Г.ГАСЫМОВ**

**РЕЗЮМЕ**

В статье подробно анализируется идейно-теоретическое наследие Гейдара Алиева на примере Нахчыванской АР, всесторонне освещается его деятельность по гармоничному развитию всех регионов Азербайджана, являющейся составной частью стратегии устойчивого прогресса нашего общенационального лидера. Подчеркивается, что благодаря многогранной деятельности Гейдара Алиева, автономная республика в 70-ые годы достигла огромных успехов во всех сферах жизни. Под руководством Гейдара Алиева Нахчыванская АР в начале 90-х годов смогла выстоять перед реальной угрозой оккупации Армении. После вторичного прихода общенационального лидера к власти в Азербайджане Нахчыван стал гармонично развиваться, укрепилась его безопасность. Все это является доказательством жизнеспособности стратегического курса Гейдара Алиева.

## HEYDAR ALIYEV'S ROLE IN THE HISTORICAL FATE OF NAKHCHIVAN

**A.G.GASIMOV**

**SUMMARY**

Heydar Aliyev's ideological-theoretical heritage on the example of Nakhchivan AR is analyzed in details, his activity on harmonious development of all the regions of Azerbaijan being the component of our national leader's strategy of steady progress is elucidated in the article.

It is emphasized that, due to Heydar Aliyev's diversified activity, the autonomous republic achieved great success in all spheres of life in the 70s. At the beginning of the 90s under Heydar Aliyev's leadership Nakhchivan AR could stand the real danger – occupation by Armenia. After the national leader's return to power in Azerbaijan Nakhchivan began to develop harmoniously, its security strengthened. All these prove the inviolableness of Heydar Aliyev's strategic course.